# Qazaxıstanın Qütb ulduzu - Abay

(başlanğıcı ötən sayımızda)

***Bu sözdən də bəlli olur ki, utanmaq imanın bir üzüdür. Yaxşı, əslində utanmaq nə deməkdir? İnsan nədən həya-abır edib utanmalıdır? Utanmaq var – nadanlığın utanmağı, bu balaca uşaqların utanmağına bənzəyər, balaca uşaq kiməsə yanaşıb söz demək istər, lakin deməyə utanar. Əgər insan nə şəriət qarşısında, nə də vicdan qarşısında utanmayacaq bir iş görməyibsə, burada utanmağın yeri yoxdur, niyə utansın ki, insanın utanması gərək olan bir şey varsa, bu da axmaqlıq və rəzillikdir.***

***İnsan o vaxt utanar ki, vicdansızlıq etsin, insanın ləyaqətini alçaldan namussuz bir iş görsün. Belə utanmaq da ikitərəfli olur. Onlardan biri – insanın öz etdiyi əməlinə görə utanmasıdır, ikincisi, kiminsə etdiyi işə görə utanması- dır. Belə hadisə baş verəndə ona görə utanırsan ki, həmin insana görə əzab çəkirsən. "Əgər bu işi görsəm, bu yazığa nə olacaq, onun özünə nə olacaq? Niyə belə bir iş tutdu?", - deyə təəssüflənib, ona görə qızararsan. Bax, buna görə utanmağa dəyər.***

Digər utanmaq isə insanın öz vicdanı ilə bağlıdır. İnsanın şəriət qarşısında suçlu olmasıdır, öz insanlığı və vicdanı qarşısında cavabdehliyi, özünün ya başqasının yanlışı ucundan baş verən hadisənin nəticəsidir. Ola bilsin ki, səndən başqa heç kimin etdiyin günahdan xəbəri olmaz, lakin öz vicdanın hər zaman səni təqib edər, cəzalandırar. Sən özünə yer tapmazsan, özgələrin gözünün içinə baxa bilməzsən, etdiyin hər hansı bir günahdan əzab çəkərsən. Elə adamlar da var, etdikləri yanlış hərəkətin ucbatından hətta yeməkdən imtina edər, gecə yuxu yatmaz, hətta intihara əl atar. Utanmaq – insanın ləyaqətindən irəli gələn bir hisdir ki, bu hiss insanı vicdanı ilə üz-üzə qoyar, insan özü etiraf edib, özünü cəzalandırar. Belə vaxtlarda adamın beyninə başqasının sözü batmaz, fikri bir yerdə qərar tutmaz. Bir sülengi it kimi, gözlərindən tökülən yaşı yığıb-yığışdıra bilməz, burnunun suyunu silə bilməz. Beləsi nəinki insanların gözünün içinə baxa bilməz, hətta gözlərinə heç nə görünməz. Bəlkə də belə xislətli birisi, nəinki qarşısındakı digər günahkarı bağışlaya bilər əksinə qarşısındakının əzablarını artırmaqdan həzz alar, belə adamlarda mərhəmət və insanlıq olmaz.

***Mənim indi tanıdığım adamların çoxsu belədir: heç nədən utanıb, qızarmazlar. Hələ bir utanmadan üzünə baxıb: "Mən öz günahımı boynuma alıram, daha nə lazımdır?", – deyərək at kimi üzünə durar və yaxud da "Yaxşı da mən biabır olmuşam, sən niyə narahat olursan?", – deməklə üzünə dayanarlar.***

***Və yaxud da: "Filankəs filan işi gördü, bəhmənkəs də bəhmən işi. O birisi də başqa biri- sini... Onlar ki, gəzib-dolanıb, utanmırlar, mən niyə utanmalıyam ki? Mən ki onlarla müqayisədə belə böyük qəbahət işlətməmişəm? Həm də, mənim bu işi görməyimin bir səbəbi var idi" – deyib, beləcə utanmaq əvəzinə, özlərini təmizə çıxararlar.***

***Əgər biz yalan deyiriksə, hədisdə yazılana bax. İndi eşitdiyi hədisi misal çəkən adamın imanı varmı, yoxmu?***

**1896**

## Otüz yeddinci söz

1. Adamın fərasəti işi başlayanda bilinər, bitirəndə yox.

2. Söz nə qədər üreyindədirsə dadı var, ağzından çıxdısa dadı qaçar.

3. Hikmətli sözü nadana deyəndə bundan könlü bulanar.

4. Kişiyə elminə baxıb dəyər ver, dəyərsiz adamı qiymətləndirsən, qudurdarsan.

5. Yaxşı oğul – el gözünə çəpərdir.

Elin oğlu – sənin oğlun.

6. Mərd adam çox istəyər, ancaq aza da razı olar. Naqis adam çox istəyib, tapdığına şükr etməz.

7. Təkcə özün üçün çalışıb yesən, heyvandan fərqlənməzsən, yox, əgər insanlara borcunu qaytarmaq üçün çalışsan, Tanrının da sevimli qullarından biri olacaqsan.

8. Sokratı zəhərləyən, Janna Darkı yandıran, İsanı çarmıxa çəkən, peyğəmbəri dəvənin sümükləri ilə birlikdə basdıran kim idi? Həmin o kütlə. Kütlədə ağıl olmaz. Çalış, dilini bilib, haqq yoluna döndərəsən.

9. İnsan öz zəmanəsinin övladıdır. İnsanın etdiyi günahlara görə zəmanə günahkardır.

10. Əgər mənim əlimdə qanunların gücü olsa idi: "insan düzələn deyil", – deyən adamın dilini kəsərdim.

11. Dünyada yalqız qalan adam ölü kimidir. Bütün bəlalar yalqız adamın başına gələr. Dünyanın yamanı da, yaxşısı da, şənliyi də, sevinci də ötəridir. Kimisi ləyaqətlə ağrısını çəkəcək, kimi də sevincini yaşayacaq.

12. Yamanlığı kim görməz ki? Ümidi üzmək – zəiflikdir. Dünyada dəyişməyən heç nə yoxdur, heç yamanlıq da əbədi deyil. Məgər qarlı qışdan, soyuq borandan sonra güllü-çiçəkli yaz gəlmirmi?

13. Acıqlı adamın sözü az olarsa, demək, hirsini içində boğa bilib.

14. Bəzən uğur və xoşbəxtlik insanı sərxoş edər. Tək-tək insan belə anlarda soyuqqanlı qala bilər.

15. İşinin rəvan getməsini istəyirsənsə, yolunu tap.

16. Böyük mənsəb sal qaya kimidir. Onun üzərində ilanlar da sürünər, başında qartallar da uçar. Yaltaq adamlar o qayanın başındakını tərif edəcək, əli çatmayanlar ona əl çalacaq.

17. Dünya – bir dənizdir. Zaman – külək.

Öndəki dalğalar – atalardır. Arxadakı dalğalar – böyük qardaş, Ləpələr – nəvələrdir.

Növbə ilə dalğalanar, Növbə ilə yox olar və yenə də görünərlər.

18. Təkəbbürlü padşahdansa, Beli bükülən qoca yaxşıdır.

Saqqalını satan qocadan (yəni əlini saqqala çəkib yalan söyləyən)

Əməyini satan gənc uludur.

19. Acgöz dilənçi – adamların şeytanıdır.

Zəhmətsiz sufi – moltanıdır.

***20. Yaman dost kölgə kimidir: Yaxşı gündə başının üstündən çəkilməz, yaman günündə tapılmaz.***

***21. Dostu olmayanla sirdaş ol, dostu çox olanla mehriban. Dərdsiz insana hörmət et, dərdli insana diqqət et.***

***22. Barsızdan bar olmaz, Etibarsızdan yar olmaz, Şəyirdsiz ustad olmaz.***

***Bəxtin gətirməyəndə hamı yığılıb sənə bəxt diləyər, özün də özünə bəxtəvərlik arzulayar- san. Məqsədinə çatandan sonra, xeyrini təkcə özün görəcəksən.***

**1896**

## Otuz səkkizinci söz

Ey ürəyimin qüvvəti, övladlarım!

Sizə insan oğlunun əməlləri haqqında bir neçə söz yazıb qoymaq istəyirəm. Diqqətlə oxuyub, dərinliyinə varsanız, qəlbinizə sev- gi-məhəbbət dolacaq.

***Əvvəla, adamın adamlığı, ağılı elmdən bəh- rələnər. Bunun var olmasının əsas səbəbi insa- nın kamil və sağlam doğulmasıdır. Sonrası isə nəcib ata və anadan, müdrik ustad və dostlardan asılıdır. Tələb və meyl sevgidən yaranar. Elmə və biliyə sevgi isə üç şeydən yaranır. Körpə uşağın elmə və biliyə həvəsin nə olduğunu bilmir. Onu körpəlikdən buna alışdırmaq, yollarını göstərmək lazımdır. Sonra özü istədiyi yolu seçəcək. Bir uşaq ki, elmə-biliyə məhəbbət, ma- raq göstərdi, sonda ondan adam olacaq. Sonra onda Ulu Tanrını tanımaq, özünü tanımaq, dünyanı tanımaq vərdişləri yaranacaq.*** Daha sonra adam olmağın şərti üçün insanlığını, mənəviyyatını itirmədən qazanc əldə etmək gəlir; xeyirli işlər görmək, nəyəsə sahib olmaq, hər cür pis əməldən qaçmaq və fərqli elmləri öyrənmək bacarığı varsa, həmin adama ümid etmək olar. Yoxsa, işi fəna olacaq. Bir çox ata-analar uşaqların işini çətinləşdirib, onları dərs almaq üçün molla yanına aparır, bununla da onları çaşdırırlar. Molladan aldığı dərs isə uşağa elm öyrətmir. Belə uşaqlardan bütöv adam alınmır. Çün- ki molla yanında elmləri olduğu kimi dərk etmirlər. Molla savadı alan uşaqlardan da xeyirli elm sahibi olması sual altındadır.

Belə düz yol göstərilməyən uşaqlar da sonda məsuliyyəti hiss etmir, biliyə, ustada, imana, etiqada kəm baxırlar. Beləliklə həmin uşaqlar böyüyb yarımadam olurlar, yarımolla, yarımüsəlman... belələrindən ətrafdakı insanların bəhrələnməsi çətindən çətindir. Allah-Təala həqiqətin və doğrunun özüdür. Xəyanət həqiqət və səmimiliyin düşmənidir. Düşmənin vasitəsilə çağırılan dost gələrmi? Səmimi olmayanın ürəyində məhəbbət olmaz. İnsanın bilikləri onun həm də haqqa gedən yolunu göstərir, təbiətdə olan sirrlərin qapısını açır, hikmətləri öyrədir. Tanrının elmi olmur, insan elmi və marağı özü yaradır. Hər şeydən öncə Ulu Yaradanı sevmək lazımdır. Bəllidir ki, Elm Tanrının sifətlərindən biridir. Elmə olan məhəbbət haqqın və doğru yolun göstəricisidir. Elmlə məşğul olan adam burada mənfəət güdüb, pul qazanmaq, hörmət-izzət istəyəcəksə, bunlar olan yerdə elmin və həqiqətin yolunu tapmayacaq.

Mal-dövlət, izzət-hörmət insanı özü axtarıb taparsa, o zaman insan qudurub, korlanmır. Yox, əgər, insan özü var-dövlət dalınca qaçırsa, onu əldə edib-etməməyindən asılı olmayaraq, adamlığını yox edər.



İndi həqiqəti danışıb, onu öyrənməyə həvəsin olarsa, adamlığın necə olması nəsihətlərini qulağında sırğa elə.

Əvvəla, dinin, islamın yolundakı bəndələr imanın həqiqətinin nə söz olduğunu bilməlidir. "İman" dediyimiz bir nəsnəyə inanmaqdır. Odur ki, sən ulu Tanrının şəriksiz olduğuna, "Quran"ın onun kitabı olduğuna və peyğəmbə- rimiz Məhəmməd Mustafa Səlallahu Ələyhəs səlamın onun elçisi olduğuna inanmış olursan. Bununla nə olur? – Sən Ulu Yaradana Onun özünə görə iman gətirirsən, ya özün üçün iman gətirirsən? Sən inansan da, inanmasan da, bundan ulu Tanrının gücü artıbazalmayacaq, onun üçün fərqi yoxdur. Özün üçün iman gətirsən, demək, inanmısan. Bu inamın da ancaq inanmağını göstərmək üçündürsə, onda, onun da yararı yoxdur. İnamın hansı çətinliklərlə qazanıldığını anlayandan sonra, belə inamda kamil olacaqsan. İnam da əməl kimi kamil olmalıdır. Siz: "Əməntü billahi kəmahuə bi əsmayhi ua-sifatihi", – dediniz. Bunlar Yaradanın isimlə- ridir, onların anlamını bilməli, həm də, səkkiz sirrin nə demək olduğunu kamil öyrənməlisən. Özünü onun qulu bilib, özünə müsəlman adı verib, təslim olanlara da rast gələcəksən. Hər sözə razı olubmuş kimi, cahillərin dediklərini təsdiq edib, başını tərpədənlərə inanma. Bu Tanrının şərtlərindən deyil. Onu bil ki, Tanrının yaratdıqlarını olduğu kimi təkrar edə bilməzsən, lakin onun qoyduğu yolu tut, onun dediklərini elə, göstərdiyi yolla get. Ona görə ki, ulu Tanrının bu sifətləri var: Həyat, Elm, Qüdrət, Bəsər, Səmih, İradə, Kəlam, Təkin. ***Tanrı insanı bu səkkiz sifəti ilə yaradıb, bu da həmin kamillikdir ki, həm də Yaradana məxsusdur. Tanrının yaratdığı, əşrəf bildiyi insanlara kəramət və əzəmətlə birlikdə bu səkkiz sifəti verdi. Lakin onlara Tanrı olmağı deyil, insan olmağı rəva bildi. Bəs biz onun bizə verdiyi bu keyfiyyət və xasiyyət- ləri, ulu Yaradanın istədiyi kimi kamil bir şəkildə yerinə yetirib, müsəlman ola bilirikmi? – Ola bilmərik. O səkkiz sifətin sifətimizdə həmin adlarla birlikdə necə təcəlla etdiyini bilmək üçün hər şeydən öncə əməllərimizlə Tanrıya xidmət etməliyik, bilməliyik ki, bizim beynimiz inkişaf etməli, dünyagörüşümüz artmalıdır.***

(davamı gələn sayımızda)

**Mal-dövlət, izzət-hörmət insanı özü axtarıb taparsa, o zaman insan qudurub, korlanmır. Yox, əgər, insan özü var-dövlət dalınca qaçırsa, onu əldə edib-etməməyindən asılı olmayaraq, adamlığını yox edər. İndi həqiqəti danışıb, onu öyrənməyə həvəsin olarsa, adamlığın necə olması nəsihətlərini qulağında sırğa elə**

**Azərbaycan türkcəsinə uyğunlaşdıran:**
**Aida EYVAZLI GÖYTÜRK**